ISSN: 2707-1146
e-ISSN: 2709-4189

DOI: 10.36719/2707-1146/04/26-29

**Kəmalə İbrahim qızı Əliyeva**
Lənkəran Dövlət Universiteti
k.aliyevaugur@gmail.com

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN YAŞ XÜSUSİYYƏTLƏRİ VƏ DƏYƏRLƏNDİRMƏ PROSESİNİN APARILMASI

**Xülasə**

"Məktəbəqədər yaşlı uşaqların yaş xüsusiyyətləri və dəyərləndirmə prosesinin aparılması" adlı məqalədə mütəxəssislərin ASP-nin yaş xüsusiyyətlərinin düzgün qiymətləndirilməsi və eyni zamanda aparılan dəyərləndirmə metodlarından düzgün istifadənin əhəmiyyətini vurğulayır. İnkişaf göstəricilərini nəzərə almaqla uşaq üçün fərdi öyrənmə proqramının tərtib olunmasının vacibliyi və istifadə oluna biləcək dəyərləndirmə vasitələri məqalədə ətraflı şərh olunub. Bu baxımdan məqalə pedaqoqlar üçün həm nəzəri, həm də praktik əhəmiyyət daşıyır. Məktəbəqədər yaş dövründə uşaq öz mənini digərlərindən ayıra bilir, cinsi kimlik inkişaf etməyə başlayır, özünün qız və ya oğlan olmasını anlayır. Autizmli uşaqlarda mən, özüm anlayışı, mən şəxs əvəzliyindən istifadə sıx qarşılaşmadığımız məqamdır.

***Açar sözlər:*** *autizm, inkişaf, ləngimə, dəyərləndirmə, əşya davamlılığı, göz kontaktı, sterotipik davranışlar*

**Kamala Ibrahim Aliyeva**
Lankaran State University
k.aliyevaugur@gmail.com

## Aged characteristics of preschool children and conducting evaluation process

**Abstract**

In the article "Aged characteristics of preschool children and conducting their evaluation process" the importance of the precise evaluation of the properities of autistic spectrum disorder by experts and the same time the importance of the accurate usage of evaluation methods conducted by experts is emphasised. Knowing the characteristics of the psychological development according to the age, the possibility of the assessment of the children with general developmental disorder is reflected in the article. Taking into consideration of developmental signs, the vitality of collecting of individual learning programs for a child and the assessment tools which can be applied are interpereted comprehensively in the article. During the pre-school age, the child can distinguish himself from others, begins to develop gender identity, understands whether he is a girl or a boy. In children with autism, the concept of I, myself, the use of the personal pronoun I is something we do not often encounter.

***Keywords:*** *Autism, development, setback, assessment, object permenance, eye contact, stereotypical behaviours*

## Giriş

Məktəbəqədər yaş dövrü 3-6 yaşları əhatə edir. Bu dövr uşağın ontogenetik inkişafında olduqca əhəmiyyətlidir. Məktəbəqədər yaş dövründə uşağın inkişafında əhəmiyyətli dəyişikliklər baş verir, nitq inkişaf edir, oyun aparıcı fəaliyyətə çevrilir, uşağın sosiallaşması, ünsiyyəti, münasibətlər sistemi formalaşır. Bu dövrdə uşaq inkişafında müşahidə edilən ləngimələr ciddi səbəblərdən qaynaqlanır. Bu araşdırıldıqda isə ortaya çıxan səbəblərdən biridə Autizm Spektr Pozuntusudur.

DSM 5ə görə Autizm Spektr Pozuntusu olan uşaqlar öz duyğularını, maraqlarını bölüşə bilmir, ünsiyətə girə bilmir, nitqin gecikməsi müşühidə olunur, göz kontaktı və bədən dilindən istifadə etməkdə çətinliklər, xəyali oyunların olmaması, yaşıdları ilə oyun oynaya və ünsiyyət qura bilməmək, təkrarlanan hərəkətlərin və oyunların olması, sabit maraq dairəsinin və kiçik dəyişikliklər qarşısında aşırı reaksiyanın verilməsi kimi xüsusiyyətlərin olması ilə özünü göstərir. Bu əlamətlər isə özünü üç yaşa qədərki dövrdə göstərir (Aydın, 2008).

Yuxarıda sadalananlardan aydın görünür ki, çox geniş inkişaf sahələrini əhatə edən və ən vacib sahə olan ünsiyyətin inkişafındakı axsaqlıqlar ASP nun gündəlik həyatının ayrılmaz hissəsinə təlimin keçməsini şərt qoyur. Məhz ünsiyyət bacarıqlarının zəif inkişaf etməsi məktəbəqədər yaşlı autizmli uşaqların ümumi inkişafını geri salır. Beləki oyun, mənin, cinsi kimliyin inkişafı, emosianal düşüncənin inkişafını ünsiyyət bacarıqları təmin edir.

Ünsiyyət bacarıqlarının zəifliyi isə bütün bu sahələrdə axsaqlıqlar yaradır (Prizant, 2019).

ASP nin yaşa görə xüsusiyyətləri aşağıdakı kimidir:

Altı - 24 aylıq əlamətlər: üzə gülümsəmə yoxdu, bir yaşını keçməsinə baxmayaraq adına reaksiya yoxdur, sağ ol, əl çalma kimi sadə təqlid tapşırıqları edə bilmir, işarə barmağından istifadə edərək nə ehtiyaclarını, nə də sosial marağını ifadə edə bilmir, ilk sosial oyun olan "ci-ci" oyununa reaksiya yoxdur, "canlanma kompleksi"nin yoxluğu, nitqdə gecikmə (18 aylıq olmasına baxmayaraq kəlimələrin yoxluğu), əşya davamlılığının inkişaf etməməsi, birinci və ikinci təkrarlanan davranışların israrla müşahidə olunması özünü göstərir. Əşya davamlılığı əşya gözümüzün önündən itsə belə onun var olduğunu düşünə bilməkdir.Əgər uşağın gözünün qarşısında sevdiyi əşyanı gizlətsək uşaq onu axtarırsa bu əşya davamlılığının inkiaf etdiyinin göstəricisidir. Bəzən uşaq ya heç reaksiya vermir, ya da ağlayıb qışqırmağa başlayır. Hər iki halda əşya davamlılığının inkişaf etmədiyini deyirik. Əşya davamlılığı 8 aydan etibarən inkişaf etməyə başlayır, 24 ayında isə inkişafını tamamlayır. Birinci təkrarlanan reaksiyalar 0-6 aylıq dövrdə özünü göstərmlidir. Burada hərəkətlər təmamilə bədənə yönəlib. Məsələn, barmağını əmmə, əlləri gözü qarşısında çevirmə və s. Halbuki bu davranışları biz ASP da daha böyük yaşlarda belə müşahidə edirik. Ətrafı dərk etmədə önəmli yol qət edə bilməyən uşaqlar birinci təkrarlanan hərəkətlər periodunda ilişib qalırlar. İkinci təkrarlanan hərəkətlərdə (6- 12 ay) isə xaricə yönəlmiş təkrarlar var. Beləki uşaq əlindəki qaşığı dayanmadan masaya vurur, masadakı kubikləri yerə atır. Bu zaman çıxan səsdən uşaq zövq alır. Buna bəzər davranışları sonrakı yaş mərhələlərində şahid oluruq. Bu isə duyğuların vəhdət halında çalışmadığının və uşağın sensor sistemində pozuntunun olduğunun göstəricisidir. Bu da birbaşa qavrama prosesini çətinləşdirir, uşağın yaşa uyğun bilik və bacarıqları mənimsəməsinə mane olur (Ozbey, 2011).

24- 36 aylıq göstəricilər:

2 yaşına gəlməsinə rəğmən cümlə qura bilmir, ən yaxşı halda tək tək sözlərdən istifadə edir, yaşıdları ilə oyun oynamır, təkliyə üstünlük verir və onun sahəsinə daxil olmaq olduqca çətindir. Oyuncaqları məqsədyönlü istifadə etmir, eyniliyi (eyni qida, eyni yol, eyni geyim və s) sevir.

Təqlid bacarıqlarının inkişaf etməməsi, (hansıki altı aydan etibarən təqlid bacarıqları inkişaf etməyə başlayır) uşaqların oyun oynaya bilməməsi ilə nəticələnir.

Yuxarıda sadalananların hamısı eyni uşaqda olmaya bilər. Əgər bu əlamətlərin bəzilərini belə valideyn müşahidə edirsə uşağın inkişafını müəyyən etmək üçün mütləq mütəxəssisə baş vurmalıdır (Dikmen, 2012).

Bəzən uşaqlarda texnoloji vasitələrə (telefon, planşet, kompyuter) həddən artıq maraq müşahidə edilir və bu vasitələrlə bağlı məlumatları və işləyiş tərzlərini yaşıdlarından fərqli biçimdə, olduqca tez mənimsəyirlər. Qoyduqları əşyanı, getdikləri yolu çox yaxşı yadda saxlaya bilirlər. Yuxarıda sadalanan spesifik əlamətlərlə yanaşı bu xüsusiyyətləri övladlarında müşahidə edən valideyn digər əlamətləri görməzdən gəlir. Xüsusilə qeyd etmək lazımdır ki. Bu xüsusiyyətlər valideynləri çaşdırmamalı, mütəxəssislə görüşü ertələməməlidir.

Bütün yuxarıda sadlananlar nəzərə alınaraq uşağın dəyərlənirilməsi təşkil olunmalıdır. Beynəxalq dəyərləndirmə sisemləridə məhz bu şəkildə qurulub. M - CHAT testi, Portec, Autism Checklist, PEP- R, AGTE və başqalarından istifadə edərək dəyrləndirməni qura bilərik. Dəyərləndirməni aparmaqla bərabər, alınan nəticələri düzgün qiymətləndirmək və proqram tərtib etmək əhəmiyyətlidir (Darica, Abidoglu, Gumuscu, 2011).

M - CHAT testi 18- 36 aylıq uşaqlar ilə aparılır. Ümumilikdə 23 maddədən ibarətdir, təxminən 15 - 20 dəqiqə ərzində aparılır. Testdə yer alan 23 maddənin hər hansı üçündə, və ya altı kritik maddənin ikisində uğursuz olan uşaq ASP riski altına girir. Suallara uşağın anası və ya uşağa baxan şəxs cavab verir. Testdə verilən suallar aşağıdakı başlıqları araşdırmaq məqsədi daşıyır.

- insanlarla ünsiyyət qurmaq
- empatiya hissi
- bədən dilindən istifadə
- dəyişikliklərə adaptasiya
- əşyalardan istifadə
- dinləmə
- dad, qoxu, və toxunma analizatoru
- qorxu və gərginlik
- sözlü ünsiyyət
- qeyri verbal ünsiyyət

Nəticələr normal, yüngül, orta, şiddətli formada analiz edilir. Digər əhəmiyyətli testlərdən biridə PEP -R dır. PEP- R testi 174 maddədən ibarətdir. 0 - 12 yaş arası uşaqlar ilə aparılır. Test bir neçə gün ərzində aparılır. Çünki maddələrin çoxluğu uşağı yora bilər və bu nəticələrə təsir edər. Bu testdə hər sahənin inkişaf yaşı müəyyən olunur eyni zamanda uşağın inkişaf yaşı müəyyən olunur. Məsələn, ola bilər ki, test beş yaşında uşaqla aparılır.

Amma testin nəticəsinə görə uşağın inkişaf yaşı üçdür. Test yeddi inkişaf sahəsini (təqlid, qavrama, incə motor, böyük motor, əl - göz kordinasiyası, verbal və qeyri verbal nitq) və dörd davranış sahəsini (oyun və materiallar, emosional reaksiyalar, dil və münasibət) araşdırır. İnkişafını yaşına uyğun formada keçirən uşaq sadalanan sahələrdə ahəngli, tarazlaşmış inkişaf göstərir. Autizm Spektr Pozuntusu olan uşaqlar da isə bu sahələr arasındakı tarazılıq, əlaqə pozulmuş olur. Testin nəticəsinə uyğun tərtib olunmuş təlim proqramı bu sahələr arasındakı balanslaşdırılmış inkişafı təmin edir.

Bəzi bacarıqar var ki, hələ tam inkişaf etməyib, ancaq kiçik müdaxilə ilə bərpa olunacağı mümkündür. Pep - R testinin üstün cəhəti ondan ibarətdir ki, nəticələr işlənən zaman bu haqda da məlumat ala bilirik. Bu inkişaf etmək də olan sahələri tərtib olunmuş proqrama əlavə edərək, inkişaf prosesini sürətləndirə, öyrənilən bacarıqların siyahısını artıra bilərik (Yavuzer, 2019).

Uşağın psixi inkişafında məktəbəqədər yaş dövrünün müstəsna rolu vardır. Nəzərə alsaq ki, bu dövrdə aparıcı fəaliyyət oyundur və oyun inkişaf etməkdə olan beyin üçün əvəz olunmaz vasitədir bu səbəbdən bu dövrün əhəmiyyəti xüsusilə vurğulanmalıdır. Autizm Spektr Pozuntusunda oyun bacarıqlarının inkişafı qənaətbəxş olmaması müxtəlif səbəblərə bağlıdır. Təqlid və ünsiyyət bacarıqlarının zəif inkişafı uşaqların oyuna daxil olmasına mane olur. Bu isə birbaşa sosiallaşmanın, öyrənmənin zəif inkişafına gətirib çıxarır.

Məktəbəqədər yaş dövrü (3-6 yaş) nitqin təşəkkülü dövrüdür. Autizm Spektr Pozuntusunda nitq bacarıqları kifayyət qədər inkişaf etmir. Autizmli uşaqların nitqində exolaliya (təkrarlanan nitq) diqqəti çəkir. Ümumilikdə uşaqlar da nitqin yeni formalaşdığı dövrdə exolaliya müşahidə olunur. Amma bu olduqca qısa müddəti əhatə edir. Autizm Spektr Pozuntusunda isə exolalik nitq uzun zaman davam edir, düzgün müdaxilə ilə ardan qaldırılır. Uşağın koqnitiv inkişafı təmin olunduqca anlaması artır və exolalik nitq aradan çıxır. Bu isə ünsiyyəti formalaşdırır (Persson, 2012).

Məktəbəqədər yaş dövründə uşaq öz mənini digərlərindən ayıra bilir, cinsi kimlik inkişaf etməyə başlayır, özünün qız və ya oğlan olmasını anlayır. Autizmli uşaqlarda mən, özüm anlayışı, mən şəxs əvəzliyindən istifadə sıx qarşılaşmadığımız məqamdır. Monoton nitqə sahib olan autizmli uşaqlarda mənim, özümün anlayışı inkişaf etmədiyi üçün mənsubiyyət hissi də formalaşmaqda gecikir. Onlar diqqətlərini çəkən əşyanın kimə aid olmasına məhəl qoymadan onunla istədiyi kimi davrana bilirlər. Bu isə uşağın sosiallaşmasına əngəl yaradan durumdur. Qaydalara məhəl qoymadan hərəkət edən uşaq yaşıdları tərəfindən qəbul edilmir, kənarlaşdırılır. Cinsi kimliyin inkişafı isə Autizm Spektr Pozuntusunun daha yüngül formalarında inkişaf edə bilir. Cinsi kimliyin zəif inkişafına baxmayaraq bu yaş dövründə cinsi təlimin verilməsi əsas şərtdir. Bu uşağın təhlükəsizliyi və istismardan qorunması üçn vacib məqamdır (8).

Autizmli uşaqlar üçün bu dövrün əhəmiyyəti olduqca böyükdür. Beləki bəzən valideynlər erkən uşaqlıq dövründə övladlarının diaqnozunu qəbul etməkdə psixoloji çətinlik çəkir, bu dövrdə uşaqları təlimə cəlb etmir. Zaman keçdikcə uşağın yaşı irəlləyir və yaşıdlarının inkişafından əhəmiyyətli dərəcədə seçildiyinin şahidi olur və məhz bu dövrdən uşağı təlimə cəlb edir. Məktəbəqədər yaşlı uşaqların inkişafına nəzər saldıqda görürük ki, onlar bu dövrdə "mən mərkəzçi" olur, artıq cümlə quraraq danışır, rollu oyunlar oynayır, eqosentrik nitqə və düşüncəyə sahib olur, daxili nitqi formalaşır və s. Bəs bu yaş dövründə autizmli uşaqlarda bu xüsusiyyətlər olurmu? Əgər olmursa bu xüsusiyyətləri inkişaf etdirmək mümkündürmü? Bildiyimiz kimi Autizmli uşaqların diaqnostikası həkim psixiatr tərəfindən aparılır (9). Artıq uşaq psixoloqa, pedaqoqa müraciət etdik də diaqnozunu almış olur.

Təlim prosesinin düzgün təşkil olunması aparılan dəyərləndirmədən asılıdır. Beləki məhz bu dəyərləndirmənin sayəsində uşaq üçün proqram tərtib olunur. Tərtib olunan proqram üç və ya altı aylıq müddətə tutulur.

Yaxşı olar ki, tərtib olunmuş proqram haqqında valideyn də məlumatlandırılsın. Belə olduqda valideyn övladı ilə bu müddətdə nə ediləcək və hansı inkişafı gözləməli olacağını biləcək və əlavə gözləntilərə girməyəcək. Bəzən valideynlər qısa müddətdə pedaqoq və ya psixoloqdan fövqəladə dəyişiklik etməsini gözləyirlər (10).

Aparılan dəyərləndirmənin qənaətbəxş keçməsi üçün mütəxəssis uşaq psixologiyasını dərindən bilməlidir. Çünki dəyərləndirmə sağlam psixi inkişafın göstəricilərinə uyğun olaraq aparılır. Dəyərləndirmədə uşaq yalnız yaşı çərçivəsində qiymətləndirilməməlidir. Əvvəlki yaş dövrünün inkişaf göstəriciləri mütləq nəzərə alınmalıdır. Çox hallarda inkişaf ləngiməsi olan uşaqlarda belə bir vəziyyətlə qarşılaşırıq. 4 yaşlı uşaq ətrafındakı əşyaları tez tez ağzına aparır.

Əşyaları tanımaq üçün edilən bu davranış təxmninən yaş yarımlıqdan sonra müşahidə edilmir. Biz dörd yaşında uşaqda bu halla qarşılaşırıqsa təbii ki onun digər inkişaf göstəricilərində məhz həmin aşağı yaş qrupuna uyğunluqu qaçınılmazdır. Pedaqoqların, valideynlərin müşahidə qabiliyyətinin olması və inkişaf göstəricilərindən xəbərdar olması uşağa erkən müdaxiləni təmin edə bilər. Bu isə inkişafı sürətləndirər, əhəmiyyəli dəyişikliklər yarada bilər (11).

Pedaqoqun və psixoloqun ASP ilə bağça, məktəb və ya reabilitasiya mərkəzində üz üzə çalışması və bu çalışmanın uğurlu olması üçün həm uşaq psixologiyasını, həm də pedaqogikanı dərindən bilməsi şərtdir. Çünki inkişaf göstəricilərini nəzərə alaraq təlim prosesinin təşkili xüsusi ustalıq tələb edir (12).

## Nəticə

Məktəbəqədər yaş dövründə uşaqların psixi inkişafı sürətlə inkişaf etməyə davam etdiyi üçün bu dövrün mütəxəssis tərəfindən dərindən bilinməsi və beynəlxalq dəyərləndirmə sistemlərindən xəbərdar olması vacibdir. Bu dəyərləndirmə vasitələri uşaqla fərdi şəkildə işləməyə, onlar üçün inkişaflarına uyğun formada proqram tutmağa kömək etmiş olacaq. Bir sıra vacib nöqteyi nəzərdən izah olunmuş yaş xüsusiyyətləri mütəxəssislərə istiqamət verərək düzgün dəyərləndirməyə gətirib çıxardacaq.

## Ədəbiyyat

1. Aydın, A. (2008). My first step in autism, 2nd Edition, Psilon, Istanbul.
2. Prizant, B. (2019). A completely different way of understanding autism, 1st Edition, Paloma publishing house, Istanbul.
3. Ozbey, C. (2011). Let's educate children with autism together. Revolution, Istanbul.
4. Dikmen, I. (2012). Special Education, 6th Edition, Pegem Academy, Ankara.
5. Darica, N., Abidoglu, U., Gumuscu, S. (2011). Autism and autistic children. Ozgur publications, Istanbul.
6. Yavuzer, H. (2019). Child psychology 43rd Edition, Remzi bookstore, Istanbul.
7. Persson, S. (2012). TEACCH program, 3rd Edition, Yuka kids, Istanbul.
8. https://raisingchildren.net.au/preschoolers/play-learning/play-preschooler-development/thinking-play-preschoolers
9. http://psixologiya.net/?p=522
10. http://www.tipii.edu.az/noduploads/document/maktabahazirliq-qruplarinda-isin-taskili-metodikasi-istirakci-vasaiti.pdf
11. https://muasirtehsil.az/
12. https://www.kvalifikasiya.edu.az/modullar/Psixoloji_Mariflendirme_Ve_Profilaktika_Ishlerinin_Aparilmasi.pdf

Göndərilib: 25.07.2020 Qəbul edilib: 30.09.2020